# ABŞERON YARIMADASINDA İQLİM AMİLLƏRİNİN LANDŞAFTIN FORMALAŞMASINA TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

**İbrahimli E.B.**

*Bakı Dövlət Universiteti*
*elsadibrahimli98@mail.ru*

Landşaftın formalaşmasına, müəyyən məkan və zaman hüdudlarında diferensiasiyasına təsir edən proseslər bir-birilə qarşılıqlı əlaqədə olsalar da, konkret məkanda onların landşaftın inkişafına təsiri fərqlidir. Landşaft yaradıcı amillər ilk növbədə təbii ərazi vahidlərinin tərkibini, strukturunu və funksional xüsusiyyətlərini əmələ gətirir. Ona görə də bir sıra amillər aparıcı mövqeyi ilə, bəziləri isə asılı, passiv mövqeyi ilə fərqlənirlər. İqlimi və geomorfoloji prosesləri aparıcı amil kimi götürürlər. Sular, torpaq, bitki örtüyü, heyvanlar aləmi isə törəmə, asılı amillər hesab edilir.

Abşeron yarımadasının əsas hissəsinin iqlimi yayı quraq keçən mülayim-isti yarımsəhra və quru çöl iqlim tipinə aiddir ki, bu da öz növbəsində mövcud landşaft tiplərinin məkana görə paylanmasında xüsusi rol oynayır. Belə ki, $10^0$C-dən yüksək fəal temperaturların cəmi 4000-$4500^0$ təşkil edərək təxminən aprelin ortalarından noyabr ayının yarısınadək bitkilərdə uzunmüddətli vegetasiyanı təmin edir. Yay fəsili çox isti və quru hava şəraiti ilə səciyyələnir. Şaxtasız müddət (260-290 gün) martın ikinci yarısından dekabrın ortalarınadək davam edir. Qar örtüyü davamsızıdır və bəzi illərdə 10 gündən artıq qalmır.

Havanın maksimal temperaturu 5.8-10.3 $^0$C, minimal temperaturu isə -2.9-6.9 $^0$C intervalındadır. Meteoroloji məntəqələrin məlumatlarının təhlilindən göründüyü kimi, orta, maksimal və minimal temperaturun ən böyük qiymətləri Neft Daşlarında müşahidə olunur. Yağıntı normaları Abşeron iqtisadi rayonu üzrə nisbətən qeyri-bərabər paylanmışdır.

Yaz fəslində Abşeron yarımadasında, nisbətən isti qış şəraitinə baxmayaraq, havanın istiləşməsi bir az ləng gedir ki, bu da Xəzər dənizinin təsiri ilə izah olunur. Ərazinin müasir iqliminin əmələ gəlməsində onun coğrafi mövqeyi, yerləşdiyi fiziki – coğrafi şəraiti mühüm rol oynayır. Belə ki, ərazinin Xəzər dənizi ilə əhatə olunması, qərb tərəfdə isə böyük Qafqaz silsiləsinin cənub-şərq qurtaracağı ilə əhatələnməsi iqlimə öz kəskin təsirini göstərmişdir. Yayı quraq və isti keçir. Qışda havalar çox vaxt buludlu olur, tez-tez yağıntı düşür.

Yarımadada havanın orta mütləq maksimum temperaturu illik 40-$42^0$C-dir. Orta mütləq minimum ayrı-ayrı məntəqələr üzrə müxtəlifdir, -7-$10^0$C arasında dəyişir. Çoxillik orta temperatur isə 13,5-$14,6^0$C olur. Havanın müəyyən illər üzrə və müxtəlif meteoroloji stansiyaların verdiyi məlumatına əsasən orta aylıq və illik rütubəti faizlə miqdarı, ən çox 1991-ci ildə 78%, ən az isə 1989-də 70% olmuşdur. Göründüyü kimi yağıntıların miqdarından asılı





olaraq buxarlanmada da öz təsirini göstərmişdir.

Abşeron yarımadasında yay-yaz və payız aylarında bir sözlə il boyu havada nisbi rütubətlik müxtəlif aylarda müxtəlif olur. Məlumatlara əsasən havanın nisbi rütubəti aylar üzrə də müxtəlif olur. Yanvar ayında ən çox 86%, ən az isə 78 % olur. Abşeronda nisbi rütubət ən azı olan aylar iyun iyul və avqust aylarında olur. Burada iyun ayında ən az 56%, ən çox 68%, iyul ayında 56-70% arasında dəyişir. İllik isə 70-77 % arasında dəyişir.

Abşeron yarımadasında yağıntıların dəyişməsi, nisbi rütubətin olması və digər amillərlə yanaşı, mümkün buxarlanma da müxtəlifdir. Buxarlanmaının orta aylıq və illik miqdarı müxtəlifdir. Belə ki, müxtəlif stansiyalardan alınan məlumatlardan məlumdur ki, buxarlanma yanvar-fevral aylarında 30-36 mm təşkil edir və bu buxarlanma ən çox, iyun-iyul aylarında olur (135-227 mm-arasında tərəddüd etmişdir). İllik buxarlanmanın miqdarı 992 mm-lə 1210 mm arasında tərəddüd etmişdir.

Abşeron yarımadasında külək erroziyası mövcuddur. Burada landşaftın formalaşmasında və onun transformasiyasında külək eroziyası xüsusi yer tutur. Bu baxımdan küləklərin mövcud sürətini bilmək labüddür. Ayrı-ayrı məntəqələrdən aldığımız məlumatlara əsasən orta aylıq sürəti 6-1-17,2 m/san müxtəlif yerlərdə isə daha güclü olması məlumdur.

Külək eroziyasının fəaliyyəti küləyin sürəti və mövsümündən asılıdır. Beləliklə qış payız aylarında, daha doğrusu yağıntılar olan vaxtları sovrulma zəif olur. Bu məqsədlə biz küləyin müəyyən illər üzrə orta aylıq və illik sürəti göstərərək belə bir nəticəyə gəlirik ki, ən az illik orta sürəti 1,6 və 5,6 m/san olmuşdur.

Bunlardan əlavə öyrənilməsi vacib olan məsələlərdən biri də Abşeron yarımadasında il ərzində küləyin cəhətlər üzrə (%-lə) təkrarlanmasıdır. Təhlillər nəticəsində məlum olmuşdur ki. şimal küləkləri daha çox üstünlük təşkil edir. İyun-iyul aylarında 43-51%, ən az yeri isə qərb küləkləri tutur.

Aqroiqlim rayonlaşmasına görə Abşeron yarımadası Abşeron-Qobustan rayonuna daxildir. Bu rayonda müşahidə olunan aqroiqlim tipləri aşağıdakılardır.

1. Düzənlik-dağətəyi, yarımquru, isti (Orta kontinental);
2. Dağətəyi, quraq, orta həddən çox isti ilə təmin olunan (Orta kontinental) Şmali Qobustan;
3. Orta dağlıq, yarımquraq, orta və orta həddən az isti ilə təmin olunan (mülayim kontinental).

Peyk təsvirlərinin CİS mühitində deşifrələnməsi nəticəsində alınmış informasiyalar landşaftları geoekoloji vəziyyətinə görə rayonlaşdırmağa imkan vermişdir. Abşeron yarımadası ekzogen proseslərin inkişafının üstünlük təşkil etdiyi zonalara görə rayonlaşması həyata keçirilmişdir. Belə ki, ərazi dörd xarakterik zonaya bölünmüşdür:

1. Eol-akumulyativ
2. Dəniz akumulyativ

3. Arid-denudasiya
4. Abrazion-akumulyativ

Sahə etibarilə ən çox ərzini arid-denudasiya tipi əhatə edir. Bu da əlbbət ki, ilk növbədə ərazinin təbii-iqlim şəraitilə əlaqədardır. Akumulyativ proseslərin tiplərinə görə ərazinin rayonlaşdırılması xəritəsindən göründüyü kimi isə, bura 3 rayona bölünmüşdür:

1. Səthi eroziya
2. Dəniz
3. Prolüvial-delüvial

Burada isə ən çox ərazini əhatə edən zona səthi eroziya olaraq digərlərinə nisbətən üstünlük təşkil edir.